


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 36 (23.923)

*23 fevral 2022-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Rəsmi xronika***

Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Rusiya paytaxtında Kremlin divarı yanındakı Aleksandr bağına gəlib, naməlum əsgərin məzarını ziyarət edərək əbədi məşəl önünə əklil qoyub.

Həmin gün Rusiya dövlətinin başçısı ilə təkbətək görüş olub. Görüşdə dövlət başçıları çıxış ediblər. Rusiya Prezidenti Vladimir Putin ölkələrarası münasibətlərin inkişafında yeni mərhələnin başlandığını vurğulayıb.

Prezident İlham Əliyev bu görüşün rəmzi hal olduğunu, iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində keçirildiyini xatırladıb. Dövlətimizin başçısı qeyd edib ki, imzalanacaq sənəd ölkələrimiz, qarşılıqlı əlaqələrimiz, həmçinin regional təhlükəsizlik üçün birmənalı olaraq çox müsbət əhəmiyyət kəsb edəcəkdir.

Fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə imzalanıb.



## Kəngərli Rayon Baytarlıq İdarəsinin yeni binası istifadəyə verilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada baytarlıq təbabətinin inkişafı istiqamətində tədbirlər həyata keçirilir, baytarlıq xidmətinin maddi-texniki bazası gücləndirilir.

Fevralın 22-də Kəngərli Rayon Baytarlıq İdarəsinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Vəli Novruzov çıxış edərək demişdir ki, muxtar respublikada heyvandarlıq təsərrüfatlarının yaradılmasına verilən dəstək, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər, baytarlıq idarələrinin maddi-texniki bazasının gücləndirilməsi və ixtisaslı kadrlarla təminat heyvandarlığın inkişafına səbəb olmuşdur. Həyata keçirilən tədbirlərin davamı kimi Kəngərli Rayon Baytarlıq İdarəsi üçün yeni inzibati bina tikilmişdir. Yaradılan şərait rayon baytar həkimlərinin üzərlərinə düşən vəzifələri daha keyfiyyətlə yerinə yetirmələrinə imkan verəcəkdir. Muxtar respublikada özəl baytarlıq müəssisələri vasitəsilə baytarlıq xidmətləri göstərilməsinə mərhələli keçidə ilkin olaraq Sədərək rayonunda başlanılmışdır. Artıq Naxçıvan şəhəri, Kəngərli və Ordubad rayonlarında özəl baytarlıq xidmətləri fəaliyyət göstərir. Kəngərli rayonunda aparılan tədbirlərin nəticəsidir ki, hazırda epizootik vəziyyət stabildir. Vəli Novruzov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.







Kəngərli Rayon Baytarlıq İdarəsinin epizootik həkimi Gülnar Babayeva minnətdarlıq edərək demişdir: "Əvvəllər rayonumuzda baytarlıq xidməti üçün əlverişli şərait mövcud deyildi və baytar həkimlər köhnə binalarda fəaliyyət göstərirdilər. Ali Məclis Sədrinin bu sahəyə olan diqqət və qayğısı sayəsində rayonumuzun bütün kəndlərində tikilmiş müasir standartlara cavab verən kənd mərkəzlərində baytarlıq məntəqələri üçün yer ayrılmış, mebel və avadanlıqlarla təchiz edilmişdir. Bu gün Kəngərli Rayon Baytarlıq İdarəsi üçün yeni binanın istifadəyə verilməsi bu tədbirlərin davamı olmaqla, eyni zamanda baytar həkimlər üçün daha rahat və əlverişli iş şəraiti yaradacaqdır. Yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəyik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli Rayon Baytarlıq İdarəsinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Kəngərli kənd təsərrüfatı rayonudur. Ona görə də burada heyvandarlıq, maldarlıq, quşçuluq və arıçılıq inkişaf edib. Sağlam heyvandarlıq məhsullarının istehsalı üçün vaxtilə rayonda Baytarlıq İdarəsi yaradılıb. Bu gün isə yeni binası kollektivin istifadəsinə verilir. Rayonda epizootik vəziyyət sabitdir, mal-qara, heyvanlar arasında ciddi xəstəlik yoxdur. Bu da kollektivin öz vəzifələrini layiqincə yerinə yetirməsinin nəticəsidir.

Ali Məclisin Sədri bütün bunlara görə kollektivə təşəkkürünü bildirərək demişdir: Kəngərli rayonunda heyvandarlığın inkişafı, mal-qaranın sayının artırılması, cins tərkibinin yaxşılaşdırılması sahəsində xeyli işlər görülüb. Nəticədə, rayonda həm heyvanların baş sayı artır, həm də onlardan sağlam məhsul əldə olunur. Baytarlıq idarələrinin vəzifələri əhatə etdiyi ərazidə heyvanların xəstəliklərdən qorunması və müalicəsi ilə məşğul olmaq, baytarlıq-sanitariya və digər tədbirləri həyata keçirməkdən ibarətdir. Yaradılan şəraitdən səmərəli istifadə edərək Kəngərli rayonunda heyvandarlığın inkişafı sahəsində ciddi dönüşə nail olmaq lazımdır. Fəaliyyətin bu istiqamətdə qurulması ölkəmizdə ərzaq və qida təhlükəsizliyinin təmin olunmasına, eləcə də əhalinin rifahına xidmət edir.

"Epidemioloji vəziyyətin sabit olması üçün iki əsas sahə diqqətdə saxlanılmalıdır: sağlam mühit və sağlam qida. Bunlar vacib sahələrdir. Ona görə ki, əhalinin sağlamlığı bu sahələrin inkişafından asılıdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, sağlam mühit və sağlam qida olmadan insanların sağlamlığı təmin oluna bilməz. Ona görə də muxtar respublikada həm gigiyena və epidemiologiya, həm də baytarlıq təbabəti sahələrində lazımi iş şəraiti yaradılıb, avadanlıqlar və laboratoriyalar istifadəyə verilib, Dövlət proqramları qəbul olunub. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində lazımi ixtisaslar açılıb və kadr hazırlığı aparılır. Bütün bunlar da imkan verəcək ki, muxtar respublikada hər iki sahə inkişaf etdirilsin və kadr potensialı yaradılsın.

Ali Məclisin Sədri kollektivin "sağlam mühit və sağlam qida" prinsipini əsas götürərək vəzifələrini layiqincə icra edəcəyinə əminliyini bildirmiş və bu işlərin həyata keçirilməsində onlara uğurlar arzulamışdır.

Sonra binaya baxış olmuşdur. Məlumat verilmişdir ki, bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Zirzəmidə dərman və boyaq maddələrinin, süni mayalanma avadanlıqlarının saxlanc otaqları, aptek, arxiv, bufet, təsərrüfat, texniki işçi, qazanxana

*Ardı 2-ci səhifədə*

və elektrik otaqları yerləşir. Birinci mərtəbədə bakteriologiya şöbəsi üçün 2, serologiya şöbəsi üçün 2 otaq, laboratoriya müdiri, laborant, patoloji materialın qəbulu otaqları vardır. İkinci mərtəbədə isə 7 iş otağı və sahə baytar məntəqəsi yerləşir.

Baytarlıq laboratoriyası müasir tələblərə cavab verən mikroskop, termostat, distilyator, sterilizator, dərman və biopreparatların optimal temperaturda mühafizəsi üçün soyuducu, pH metr, sentrafuqa, multisentrafuqa və digər lazımi avadanlıqlarla təmin edilmişdir.

Binanın həyətində abadlıq işləri aparılmış, yaşıllıqlar salınmış, suvarma və işıqlandırma sistemləri quraşdırılmış, heyvan cəsədlərinin məhv edilməsi üçün bekker quyusu yaradılmışdır.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov yaradılan şəraitə görə rayon ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri gigiyena-epidemiologiya və baytarlıq təbabəti sahələrində qəbul olunmuş Dövlət proqramlarının ciddi şəkildə icra olunması, baytarlıq idarələrinin rayon gigiyena və epidemiologiya şöbələri ilə qarşılıqlı fəaliyyət proqramını hazırlaması, dezinfeksiya işlərinin davam etdirilməsi və maarifləndirməyə diqqətin artırılması barədə aidiyyəti üzrə tapşırıqlar vermişdir.



**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*“Sənaye ili” – 2022*

## Muxtar respublikada ərzaq məhsullarının istehsalı, tədarükü və təchizatı işinin tənzimlənməsi uğurla həyata keçirilir




Məhsul bolluğu yaratmaq, ərzaq təhlükəsizliyini təmin etmək inkişaf etmiş hər bir ölkənin əsas prioritet məsələlərindəndir. Məlumdur ki, 90-cı illərdə ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda sosial-iqtisadi durum güclü deyildi, sənaye məhsulları çatışmırdı. “Şərq qapısı” qəzetinin 1994-cü il 11 iyun tarixli nömrəsində “Ərzaq təchizində çətinliklər” adlı məqaləyə nəzər salaq. Burada oxuyuruq ki, blokadada yaşayan muxtar respublika əhalisinin, xüsusilə paytaxt əhalisinin ərzaq təchizatı çox vacib məsələdir. Naxçıvanda yerli sənaye müəssisələrinə ət-süd kombinatından, quşçuluq fabrikindən yeyinti məhsulları da almaq olmur. Bu müəssisələr istehsal



etdikləri malları özlərinin firma mağazalarında satırlar. Bununla əlaqədar muxtar respublikanın Ali Məclisi səviyyəsində məsələ qaldırılıb. Əvvəlki aylardan ehtiyat saxlanılan və Bakıdan az miqdarda alınan şəkər tozu, yağ, sabun, yuyucu toz və digər mallar şəhərin bağlı müəssisələrinə, uşaq evinə və veteranlar mağazasına bölünüb. Şəhər əhalisinə deyilib ki, Bakıdan ərzaq və çox işlənən mallar alınan kimi əhaliyə çatdırılacaqdır... Bu dünənin mənzərəsi idi.

Bugünkü şərait, imkanlar tamamilə fərqlidir. Zamanla qəbul edilən Dövlət proqramları, göstərilən dövlət qayğısı hesabına muxtar respublikamızda yaradılan yüzlərlə sənaye müəssisəsi əhalinin tələbatını ödəməklə bərabər, həm də onların məşğulluqlarının təmin olunmasına əlverişli şərait yaradır. Naxçıvanda istehsal olunan məhsullar adla deyilir, onlardan bir çoxu brend məhsul kimi dünya bazarında özünə çoxdan yer alıb. Bunun əsas səbəbi muxtar respublikamızda ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu islahatların, gördüyü tədbirlərin ardıcıl, davamlı olaraq həyata keçirilməsidir. Bu gün sosial-iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, muxtar respublikada 1995-ci ildə 9133,4 min manatlıq sənaye məhsulu istehsal olunmuşdursa, 2021-ci ildə həmin rəqəm 1 milyard 69 milyon 655 min 700 manata çatdırılıb. Həmçinin sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikamızda 384 növdə məhsul istehsal olunur. Bu məhsulların 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bu da onu göstərir ki, diyarımızın istehsal müəssisələrində müxtəlif növdə və çeşiddə məhsulların istehsalı üçün hər bir şərait yaradılıb.

Daxili bazarın və dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsində, muxtar respublikada istehsal olunan məhsulların Naxçıvan brendi ilə xarici bazarlara çıxarılması və tanıdılmasında mühüm rol oynayan müəssisələrdən biri də “Naxçıvan Məhsulları” publik hüquqi şəxsdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 19 aprel tarixli “Naxçıvan Məhsulları” publik hüquqi şəxsin yaradılması və muxtar respublikada ərzaq məhsullarının istehsalı, tədarükü və təchizatı işinin tənzimlənməsi haqqında Sərəncamına əsasən yaradılan müəssisənin fəaliyyəti barədə daha geniş məlumatı publik hüquqi şəxsin direktoru Vüsal Quliyevdən alırıq.

Müsahibim bildirir ki, “Naxçıvan Məhsulları” publik hüquqi şəxs muxtar respublikamızda ərzaq məhsullarının istehsalı, tədarükü və təchizatı işinin tənzimlənməsi sahəsində fəaliyyət göstərir: – Fəaliyyətimizin əsas məqsədi kənd təsərrüfatı məhsullarının istehsalını və ya emalını həyata keçirmək və stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, ərzaq məhsullarının keyfiyyətini, eləcə də dövlət vəsaitindən istifadənin səmərəliliyini artırmaq və dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Müəssisədə istehsal edilən məhsullar barədə məlumat verən müsahibim deyir ki, istehsalat bölməsində 23 adda 38 çeşiddə məhsul istehsal olunur. Belə ki, istehsalat bölməsində pendir, makaron, vermişel, qarışıq tərəvəz turşusu, meyvə qurusu (ərik, alça, gavalı, alma, xurma, qovun), üzüm yarpağı, kompot (ərik, alça, gavalı, gilənar, həmərsin, zirinc, heyva) və cem (ərik, alma) istehsalı, balın, kəklikotu qurusunun qablaşdırılması sahələri fəaliyyət göstərir. Əlavə olaraq, publik hüquqi şəxs tərəfindən muxtar respublikada fəaliyyət göstərən 5 istehsal müəssisəsinin 8 adda məhsulundan ibarət hədiyyəlik çanta hazırlanaraq satışa çıxarılıb. Ötən il “Naxçıvan məhsulları” publik hüquqi şəxsin istehsalat bölməsində, ümumilikdə, 116082 manat dəyərində məhsul istehsal olunub. İstehsal edilmiş məhsulların bir qismi Naxçıvan şəhərində yerləşən iri ticarət obyektlərində və “Naxçıvan məhsulları” satış mağazasında, Bakı şəhərində yerləşən “Naxçıvan Məhsulları” satış mağazasında və 5 iri ticarət obyektində satışa çıxarılmış, bir qismi isə qapalı və sosialyönlü dövlət müəssisələrinin ərzaq təchizatına yönləndirilmişdir. “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə bağlanmış müqaviləyə əsasən publik hüquqi şəxs tərəfindən ötən il ərzində muxtar respublika ərazisində yerləşən ticarət obyektlərinə və istehsal müəssisələrinə 1577,0 ton duzun topdansatışı həyata keçirilib.



Vüsal müəllim vurğulayır ki, “Naxçıvan Məhsulları” publik hüquqi şəxs muxtar respublikamızda ailə təsərrüfatlarının fəaliyyətinə dəstək verir. Belə ki, publik hüquqi şəxsin nəzdində fəaliyyət göstərən Naxçıvan şəhər Heydər Əliyev prospekti 21 ünvanında yerləşən “Naxçıvan məhsulları” satış mağazasında ailə təsərrüfatlarının məhsulları satışa çıxarılır. Belə ki, ötən il, ümumilikdə, 19 ailə təsərrüfatının 64 adda məhsulunun satışı həyata keçirilib. Ümumiyyətlə, müəssisədə istehsal olunan məhsulların xammalı, əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçılarından və ailə təsərrüfatlarından tədarük edilir. Ötən il bal və kəklikotu qurusunun qablaşdırılması, meyvə qurusu və kompot istehsalı məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarından və ailə təsərrüfatlarından 5 ton, dövlət müəssisələrinin təchizatı məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarından 113 ton məhsul tədarük olunub. Qeyd edim ki, dövlət müəssisələrinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində yerli məhsulların payı 75 faizdir.

Müsahibim diqqətə çatdırdı ki, “Naxçıvan Məhsulları” publik hüquqi şəxs tərəfindən ötən il ərzində dövlət büdcəsindən maliyyələşdirilən müəssisə və təşkilatların ərzaq məhsulları ilə fasiləsiz təchizatını mərkəzləşdirilmiş qaydada həyata keçirmək məqsədilə muxtar respublikada fəaliyyət göstərən 23 yerli istehsal və topdansatış müəssisəsindən, həmçinin təsərrüfat subyektlərindən ərzaq məhsulu tədarük olunub. Publik hüquqi şəxs tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən muxtar respublikada fəaliyyət göstərən 40 qapalı və sosialyönlü dövlət müəssisələri 1 milyon 175 min 742 manat dəyərində ərzaq məhsulları ilə təmin edilib. Müəssisədə 26 işçi çalışır, işçilər xüsusi geyim forması və gündə bir dəfə yeməklə təmin olunur. Tədarük edilən məhsulların saxlanılması üçün 4 soyuducu anbar, dövlət müəssisələrinin ərzaq təchizatı və məhsul satışı məqsədilə 5 xüsusi təyinatlı avtomobil, məhsulların istehsalı və qablaşdırılması üçün İran, Türkiyə, İtaliya və Azərbaycan markalı 6 avadanlıq mövcuddur. Qapalı və sosialyönlü dövlət müəssisələrinə satışı həyata keçirilən ərzaq məhsullarının keyfiyyəti mütəmadi olaraq nəzarətdə saxlanılır və məhsulların aidiyyəti laboratoriyada keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra təchizatı həyata keçirilir.

Direktor onu da diqqətimizə çatdırır ki, ötən illər ərzində Naxçıvan məhsullarını tanıtmaq, təbliğ etmək məqsədilə bir çox sərgilərdə də iştirak ediblər. Belə ki, “Dövlət Aqrar Ticarət Şirkəti” MMC ilə birgə Bakı şəhərində dənizkənarı parkda keçirilən kənd təsərrüfatı məhsullarının sərgi-satışında müəssisəmizin istehsalı olan meyvə qurularının sərgi-satışı, Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən 8-ci Beynəlxalq Xəzər enerji forumunda “Kənddən şəhərə” layihəsi çərçivəsində qablaşdırılmış meyvə quruları və bal məhsulunun sərgisi və dequstasiyası təşkil olunub. Respublikamızda ilk dəfə Gədəbəy rayonunda keçirilən “Milli yaylaq festivalı”nda publik hüquqi şəxsin istehsalı olan meyvə quruları nümayiş edilib və digər tədbirlərdə uğurla iştirakımız olub.

*Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” muxtar respublikamızda bundan sonra da sahibkarlığın inkişafında, yerli məhsulların istehsalı və onların satışının təşkilinin stimullaşdırılmasında, məşğulluğun təmin olunmasında və sosial rifahın qorunub saxlanılmasında mühüm rol oynayacaq. “Sənaye ili”ndə bu sahədə həyata keçiriləcək tədbirlər, heç şübhəsiz ki, muxtar respublika iqtisadiyyatına daha böyük uğurlar qazandıracaq.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Kartof əkini aparılır



Diyarımızın ən böyük bölgələrindən biri və bərəkətli torpaqları olan Şərur rayonunun kənd adamları kartofçuluqda zəngin təcrübə qazanıblar. Onlar hərtərəfli dövlət qayğısından və qazandıqları təcrübədən səmərəli istifadə edərək hər il uğurlu nəticələrə nail olurlar. Bu cəhətdən ötən il də tarlalar vaxtlı-vaxtında və yüksək aqrotexniki səviyyədə becərildiyindən yaxşı məhsul yetişdirilib. Cari ildə də məhsul bolluğuna nail olmaq istəyən əkinçilər artıq kartof əkininə başlayıblar.

Rayonun Muğancıq-Müslüm, Sərxanlı və digər kəndlərində məhsuldar toxum sortlarına üstünlük verilir. Cari il fevral ayının 10-da əkinə başlayan mülkiyyətçilər artıq 25 hektarda kartof əkini aparıblar. Müasir kənd təsərrüfatı texnikaları, maşın və mexanizmləri olan rayonun təsərrüfat adamları mütərəqqi metodları tətbiq etməklə bu il də məhsuldarlığı yüksəltmək əzmi ilə çalışırlar.

Uzun illərdir ki, kartofçuluq Şərur rayonunun iqtisadiyyatında aparıcı sahələrdən birini təşkil edir. Hər il bölgədə min tonlarla kartof istehsal olunub bazar və yarmarkalara çıxarılır, muxtar respublika əhalisinin bu vacib ərzağa olan tələbatı yerli imkanlar hesabına ödənilir.

**Xəbərlər şöbəsi**

*Axtarışlar, tapıntılar*

# Qarabağlar kəndində yeni memarlıq kompleksi



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin qeydə alınması işi davam etdirilməkdədir. Ali Məclisin Sədri ötən il AMEA Naxçıvan Bölməsinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvanın rayonlarının tarixinin yazılmasını mühüm vəzifə kimi irəli sürməsi abidələrimizin tədqiqinə diqqəti daha da artırmışdır.*

Tarixi mənbələrin verdiyi məlumata görə, Qarabağlar orta əsrlərdə Azərbaycanın əsas şəhərlərindən biri, mühüm ticarət və sənətkarlıq mərkəzi olub. Qarabağlar ətrafında böyük orta əsr yaşayış yerlərinin, karvansarayların aşkar edilməsi onun tarixi İpək Yolunun üzərində yerləşməsi ilə bağlı olmuşdur. Şəhərin





Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdir.

Qarabağlar kəndində aşkar edilən yeni memarlıq kompleksi də orta əsrlərdə Qarabağlar şəhərinin mühüm əhəmiyyəti olan mədəni mərkəz olduğunu təsdiq edir. Yeni memarlıq kompleksi kəndin mərkəzində xalq arasında "Ocaq" adlanan köhnə qəbiristanlığın ərazisində yerləşir. Memarlıq kompleksi bir-birinin yaxınlığında olan dörd tikintidən ibarətdir. Bir-birinə birləşik şəkildə inşa edilən bu tikintilərin ikisi dördkünc formalı olub bişmiş kərpicdən əhəng məhlulu istifadə edilməklə inşa olunmuş, çatmatağla örtülmüşdür. Lakin hazırda bu çatmatağ dağıldığından abidə təbii aşınmaya məruz qalmaqdadır. Yerli əhalinin yaddaşında qalan məlumata görə, bu qəbirlərdən birincisi imam Museyi Kazımın nəslindən olan, XIII əsrdə yaşamış Seyid Əhdi Qarabağlariyə aiddir. İkinci türbədə Seyid Əhdi Qarabağlarinin övladı Seyid Xeyrulla Əhdi, onun həyat yoldaşı və qardaşının məzarları yerləşir. Verilən məlumata görə, bu abidənin üzərində olan naxışlı sənduqələr kitabə ilə birlikdə Sankt Peterburq Elmi-Tədqiqat Mərkəzinin əməkdaşları tərəfindən aparılmışdır. Məlumata görə, səkkizguşəli formada olan üçüncü türbə XX əsrdə dəfələrlə dağıntıya məruz qalmış və xalq tərəfindən yenidən bərpa edilmişdir. Hazırda bu türbənin daş tikililəri qalmışdır. Memarlıq kompleksinə aid olan bu üç tikintinin memarlıq üslubunun tədqiqi onların XIII əsrə aid olmasını təsdiq edir. Çünki bu dövr Qarabağlar şəhərinin ən çox inkişaf etdiyi və yazılı mənbələrdə xatırlandığı dövrdür. Bu tip türbələrin bənzərləri isə Azərbaycan ərazisində mövcuddur.

Bu türbələrin ön tərəfində olan dördkünc formalı tikili daşdan, əhəng məhlulu istifadə edilməklə inşa olunmuş və çatmatağla örtülmüşdür. Tikintinin biri şərqdə, digəri isə şimalda – iki girişi var və digərlərindən fərqli olaraq üst örtüyü hələ tam dağılmamışdır. Xalq arasında bu türbənin içərisində Qarabağlar xanı Fərəc xan Dünbüliyə aid əmanət qəbrin olması ilə bağlı məlumat var. Qeyd edək ki, bəzi mənbələrdə Dünbüli, bəzilərində isə tumbullu adı ilə xatırlanan tayfalar Azərbaycanın, o cümlədən Naxçıvanın müxtəlif bölgələrində məskunlaşmış və xalqımızın tarixində mühüm rol oynamışdır. Lakin türbədə bu şəxsə aid heç bir epiqrafik abidə qeydə alınmamışdır. Türbəni tədqiq edərkən onun içərisində pərişan halda yerə düşmüş bir başdaşı diqqətimizi cəlb etdi. Epiqrafist, professor Hacıfəxrəddin Səfərli onun üzərində Abbas Kərbəlayi Qasım oğlu, hicri 1133 (1720) yazıldığını müəyyənləşdirdi. XVIII əsrə aid olan bu kitabə və orta əsr memarlıq abidələri tariximizin və mədəniyyətimizin əvəzedilməz abidələridir. Kəndin mərkəzində yerləşən, indiyədək gözdən uzaq, könüldən iraq qalan bu abidələrin qorunmağa və bərpaya ehtiyacı vardır:

*O daşı qoru, qardaş,*
*Söndürmə qoru, qardaş,*
*Qorumasan, babamın*
*Od tutar goru qardaş.*

Ümid edirik ki, gələcək tədqiqatlar nəticəsində Kəngərli rayonunun ərazisində tariximizi özündə yaşadan qədim abidələr öyrənilərək üzə çıxarılacaqdır.

**Vəli Baxşəliyev**
**AMEA-nın müxbir üzvü**

*Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyində görkəmli yazıçı, ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 153-cü ildönümü münasibətilə tədbir keçirilib.*

# Böyük dramaturqun anadan olmasının ildönümü qeyd edilib



Tədbiri giriş sözü ilə muzeyin direktoru Aytən Ələkbərova açaraq bildirib ki, Azərbaycan xalqının çoxəsrlik mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr vermiş söz ustadı, böyük yazıçı, publisist, mütəfəkkir və ictimai xadim Cəlil Məmmədquluzadə 1869-cu ildə Şərqin qədim mərkəzlərindən olan Naxçıvan şəhərində anadan olmuşdur. Görkəmli ədib, eyni zamanda, məşhur "Molla Nəsrəddin" jurnalının redaktoru, tənqidi-realist üslubun banisi və mollanəsrəddin hərəkatının başçısı kimi ədəbiyyat tarixində böyük iz qoymuşdur. Azərbaycan ədəbiyyatında tənqidi-realist nəsrin və ilk satirik mətbu orqanı olan "Molla Nəsrəddin"in əsasının qoyulması milli dramaturgiyamızda tragikomediyanın, ilk alleqorik mənzum dramın yaradılması məhz Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır.

AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Milli mücadilə və istiqlal ədəbiyyatının avanqardı", AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklor şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova "Cəlil Məmmədquluzadə yaradıcılığı və "Molla Nəsrəddin"də folklor", Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, pedaqogika üzrə elmlər doktoru Kamal Camalov "Cəlil Məmmədquluzadə yaradıcılığında təlim-tərbiyə problemləri" mövzularında çıxış ediblər.

Tədbirin sonunda "Cəlil Məmmədquluzadə-153" başlıqlı sərgiyə baxış olub.

***

Fevralın 22-də ümumtəhsil məktəbləri ilə Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyi arasında görkəmli dramaturqun anadan olmasının 153-cü ildönümü münasibətilə interaktiv dərs keçilib. İnteraktiv dərsi muzeyin bələdçisi apararaq dramaturqun həyatı və yaradıcılığı haqqında şagirdlərə geniş məlumat verib.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbinin şagirdləri tərəfindən izlənilib.

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

# Növbəti işə qəbul imtahanları aparılır

Səhiyyə müəssisələrinin kadr ehtiyacının təmin edilməsi və ixtisaslı kadr potensialının artırılması məqsədilə dövlət səhiyyə müəssisələrinə işə qəbul üçün növbəti test imtahanları keçirilir.

İkincisi keçirilən və 214 müraciətin qeydə alındığı müsabiqədə namizədlərin 189-u orta ixtisas tibb işçisi, 25-i isə həkim vəzifələri üzrə qeydiyyatdan keçib. Ən sıx müsabiqə vəziyyəti tibb bacısı (97) və mama (39) vəzifələri üzrə yaranıb. Rayonlar üzrə ən çox müraciət Şərur (59) və Babək (51) rayonlarındakı səhiyyə müəssisələrində olan vakant vəzifələr üzrə qeydə alınıb.

İki mərhələdən ibarət olan imtahanın test hissəsi 60 sualdan ibarətdir. Test hissəsi üzrə hər bir düzgün cavab bir balla qiymətləndirilir. Test imtahanının nəticələrinə əsasən 40 və ya daha çox bal toplamış şəxslər imtahandan keçmiş hesab olunur. İmtahanın nəticəsi "test imtahanının nəticəsi haqqında arayış"la rəsmiləşdirilir.

İmtahan suallarının klinik tapşırıq hissəsi isə namizədin ixtisasına aid, habelə onun praktik bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən 5 sualdan ibarət olmaqla yazılı şəkildə keçiriləcək.

Qeyd edək ki, müsabiqə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 6 oktyabr 2020-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında tibb işçilərinin dövlət səhiyyə müəssisələrinə işə qəbulu və sertifikasiyasının aparılması Qaydaları"na əsasən keçirilir.

**Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti**

# Gənc yazıçı Sabrina Mədətovanın IV kitabının təqdimatı olub



Fevralın 22-də Şərur rayon Aralıq kənd tam orta məktəbində məktəbin IX sinif şagirdi, gənc yazıçı Sabrina Mədətovanın "Mənim doğma Naxçıvanım" adlı yeni kitabının təqdimatı keçirilib.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Heyran Əhmədova təhsilə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, muxtar respublikamızda təhsilin inkişafına yaradılan şərait gənclərimizin savadlı, dünyagörüşlü, yüksək intellektual səviyyəyə, geniş dünyagörüşə malik və vətənpərvər ruhda böyümələrinə, eyni zamanda xüsusi istedadı, bacarığı və qabiliyyəti ilə seçilən şagirdlərin üzə çıxarılmasına öz töhfəsini verir.

Çıxışda muxtar respublikanın ümumtəhsil məktəblərində kitabxanaların imkanlarından səmərəli istifadə olunması, ədəbiyyatımızın, mədəniyyətimizin təbliği və yaşadılması, şagirdlərin biliklərinin zənginləşdirilməsi məqsədilə keçirilən tədbirlər haqqında ətraflı məlumat verilib. Nazir müavini vurğulayıb ki, belə tədbirlərin davamı olaraq şagirdlərin milli ruhda tərbiyə olunması, Azərbaycançılıq ideyalarına sadiq, müstəqil və yaradıcı düşünən və yazıçılığa həvəsi olan şagirdləri aşkar etmək məqsədilə 2021-2022-ci tədris ilində "Gənc istedadlar" müsabiqəsi elan olunmuşdur. Sevindirici haldır ki, bu gün məktəblilər arasında gənc istedadlar, yazar və şairlər var, onlar bu yolda ilk addımlarını atırlar. Bu gənc istedadlardan biri də Aralıq kənd tam orta məktəbinin IX sinif şagirdi Sabrina Gültəkindir ki, artıq onun 4-cü kitabının təqdimatına yığışmışıq. Bu görüşün yaradıcılığa, şeir yazmağa meyli olan məktəblilərə stimul verəcəyinə inanırıq. Belə tədbirlərin təşkil edilməsi və gələcəkdə də ənənə halına çevrilməsi yaradıcı şagirdlərin üzə çıxarılmasına öz töhfəsini verəcəkdir.

Təhsil nazirinin müavini yeni kitabın nəşri münasibətilə gənc yazıçını təbrik edib, ona yaradıcılıq uğurları arzulayıb.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Əliyev anaya, Vətənə, torpağa bağlılıq hissləri ilə şeirlər yazan Sabrina Mədətovanın yaradıcılıq fəaliyyətini müsbət qiymətləndirib, ona bu yolda uğurlar arzulayıb, muxtar respublikamızda xüsusi istedadı və yaradıcılığı ilə seçilən şagirdlərin diqqət mərkəzində olduğunu vurğulayıb.

Azərbaycan Yazıçılar Birliyinin üzvləri Hüseyn Əsgərov və Elxan Yurdoğlu gənc yazarın fəaliyyəti ilə bağlı fikirlər səsləndirib, ona yaradıcılıq yolunda uğurlar arzulayıblar.

Şərur Rayon Təhsil Şöbəsinin müdiri Malik İsmayılov və Aralıq kənd tam orta məktəbinin direktoru Elsevər Əliyev çıxış edərək təhsilə göstərilən dövlət qayğısından danışıb, bu cür istedadlı şagirdlərin üzə çıxarılması, onların müxtəlif müsabiqə və yarışlarda, yaradıcılıqla bağlı keçirilən tədbirlərdə iştirakının əhəmiyyətini yüksək qiymətləndiriblər.

Sonra gənc yazıçı Sabrina Mədətova yeni əsəri ilə bağlı fikir və düşüncələrini bölüşüb, yaxşı təhsil alması üçün yaradılan şəraitə görə, yaradıcılıq yolunda ona dəstək olanlara minnətdarlığını bildirib. Tədbirdə iştirak edən şagirdlər tərəfindən müəllifin şeirlərinin bir neçəsi bədii qiraət olunub və müəllif yeni kitabını tədbirdə iştirak edən şagirdlərə hədiyyə edib.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

# Fərdi yaradıcılıq sərgisi keçirilib

*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin və Azərbaycan Rəssamlar İttifaqının üzvü olan Nəsrulla Musayevin fərdi yaradıcılıq sərgisi təşkil edilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, muxtar respublikada rəssamlara daim diqqət və qayğı göstərilir, onların yubileyləri qeyd olunur, fərdi yaradıcılıq sərgiləri keçirilir. Növbəti belə fərdi yaradıcılıq sərgisi Rəssamlar Birliyinin üzvü olan Nəsrulla Musayevə məxsusdur. Özünəməxsus yaradıcılığı, insani xüsusiyyətləri ilə seçilən bu rəssam 1965-ci il oktyabrın 2-də Babək rayonunun Cəhri qəsəbəsində dünyaya göz açıb. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinin Bədii tərtibat şöbəsində təhsil alıb. Hazırda Naxçıvan Dövlət Rəsm Qalereyasında bərpaçı rəssam kimi də çalışır. Onun yaradıcılığı təsviri sənətin növlərindən biri olan boyakarlığın bir sıra formalarında, portret, mənzərə, natürmort janrlarında çəkdiyi rəsmlərlə seçilir.

Ülviyyə Həmzəyeva çıxışının sonunda rəssama yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə Xalq rəssamı Hüseynqulu Əliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Cavid İsmayılov və Həmzə Sadiqov, digər sənət yoldaşları çıxış edərək rəssamın yaradıcılığından ürəkdolusu danışıblar. Qeyd edilib ki, sakit təbiəti ilə seçilən rəssam çəkdiyi rəsmlərdə uşaqlıq, gənclik çağlarının kənd həyatını, sadə insanların həyat tərzini, adət-ənənələrimizi, muxtar respublikanın gözəl mənzərələrini yüksək peşəkarlıqla işləyib. Bu əsərlər elə gözəldir ki, fotodan fərqlənmir. Çıxış edənlər rəssama cansağlığı, fəaliyyətində müvəffəqiyyət arzu ediblər.

Sonra sərgiyə baxış olub. Rəssamın "Mənzərə", "Xıdır Nəbi bayramı", "Şahbuz dağları", "Qızılqaya", "Qar gülləri və heyvalar", "Kənd yolu", "Bizim həyət", "Kəndə aşıq gəlib", "Küçədə söhbət", "Yun darayan qadınlar", "Naxçıvan", "Bağda" və digər rəsm əsərləri iştirakçıların diqqətini cəlb edib. 45 rəsm əsərinin nümayiş etdirildiyi sərgi bir həftə davam edəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

***Bu gün muxtar diyarımızda həyatın bütün sahələrində görülən işlər, atılan uğurlu addımlar Vətənə sədaqətin ən gözəl nümunəsi, layiqli bəhrəsidir. Hələ müstəqillik illərindən etibarən ümummilli liderin təşəbbüsü ilə ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda bir çox sahələrdə məqsədyönlü işlər görülmüş, respublikamızın ərazi bütövlüyü böyük çətinliklər bahasına qorunub saxlanılmış, erməni faşizminin törətdiyi cinayətlərə hüquqi qiymət verilmiş və siyasi müstəvidə tanıdılmışdır. Bu reallıqların layiqli nəticələri Naxçıvan Muxtar Respublikasının timsalında da günbəgün artmaqdadır. Məlumat üçün qeyd edək ki, erməni faşistlərinin ötən əsrin 90-cı illərində törətdiyi Xocalı faciəsinin 30-cu ildönümü ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə Türkiyənin "Zirvə" Dağçılık İdman Klubunun 35 və Bakı şəhərindən 7 nəfər dağçısı 18-20 fevral 2022-ci il tarixdə Haçadağa keçiriləcək yürüşdə iştirak etmək məqsədilə Naxçıvan Muxtar Respublikasına gəlmişlər. 19 fevral tarixdə isə Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının 6 nəfər dağçı idmançılarının iştirakı ilə, ümumilikdə, 39 idmançının iştirakı ilə Haçadağa yürüş keçirilmişdir. Biz də fürsətdən istifadə edib bir neçə idmançı ilə həmsöhbət olduq, onların diyarımızla bağlı təəssüratlarını öyrəndik.***

# "Naxçıvan Muxtar Respublikasının hər bir sahəsində etimada sədaqətin, Vətənə məhəbbətin izləri duyulur"



İlk müsahibimiz tarixçi *Ərsoy Akbaş* gəliş məqsədləri və xalqımızın başına açılmış böyük fəlakətdən – Xocalı faciəsindən söhbət açaraq deyir:

– Bu səfərimiz haqqında mənə məlumat verildikdə açığı çox qürurlandım, çox sevindim və bir o qədər də kövrəldim. Sevinirdim ona görə ki, qədim Oğuz-türk yurdu olan, illərlə mənfur düşmənə sinə gərib, blokada mənqənəsində belə, təslim olmayan Naxçıvana səfər edirdim. Bu mənim muxtar respublikaya, bu gözəl məmləkətə ilk səfərim idi. Naxçıvanı və naxçıvanlıları daha yaxından tanıyacağım üçün qürurlanırdım. Mətbuatla daha yaxından təmasda olduğum üçün qardaş Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda gedən inkişaf, quruculuq və abadlıq işlərindən az-çox xəbərdar idim. Onları mütaliə etdikcə blokada şəraitində belə ardıcıl inkişafa nail olan bu diyarın müasirlik simasını görmək üçün daha çox can atırdım. Nəhayət, bu gün onunla daha yaxından tanış oldum. Bizim buraya səfərimiz də tarixi bir reallığın, inkaredilməz düşmən təxribatının, türk xalqına edilən təcavüzün illər arxasından gələn, unudulmayan, unutdurulmayan həqiqətin – Xocalı həqiqətinin işığında baş tutdu. Bu hadisə nəinki qardaş Azərbaycanın, həm də bütün Türk dünyasının faciəsi, insanlığa qarşı törədilmiş vəhşətin bariz nümunəsidir. Həmin illərdə mənim otuz yaşım vardı. Azərbaycana qarşı mənfur erməni qruplaşmalarının ard-arda etdiyi təxribatları eşidir, görür və qəlb yanğısı ilə buna tamaşa edir, əlimizdən gəldiyi qədər kömək əlimizi uzatmağa çalışırdıq. Bilirdik ki, erməni şovinistlərinin 80-ci illərin sonlarından Qarabağa qarşı qaldırdıqları iddialar, etdikləri vəhşiliklər, törətdikləri cinayətlər nəticəsiz qalır, beynəlxalq təşkilatlar bu hadisələr qarşısında susur və baş verən bu ağrılı-acılı prosesləri soyuqqanlılıqla izləyirdi. Xocalı qətliamını biz mətbuat vasitəsilə faciə törədildikdən bir neçə gün sonra öyrəndik. Xatırlayıram ki, dünyada misligörünməmiş faciə olan Xocalı soyqırımı 1992-ci ildə Türkiyənin ən fəal mətbuat orqanlarında – "Cümhuriyyət", "Hürriyyət", "Milliyyət", "Türkiyə", "Tərcüman", "Meydan" qəzetləri, "Azərbaycan Türk kültür dərgisi"ndə işıqlandırılmışdı. Biz də qardaş ölkəmizin, soydaşlarımızın başına açılan bu müsibətlərdən xəbərdar olmaq, köşklərin qarşısında qəzet almaq üçün sıraya düzülmüşdük. Xocalıdan türk jurnalistlərin verdiyi məlumatları, fotomüxbirlərin çəkdiyi o insanlığa sığmayan, əlləri, burunları, qulaqları kəsilmiş, körpələri qucağında atəşə tutulmuş qardaşlarımızın şəkillərini gördükcə qəlbimizdəki intiqam alovu daha da körüklənirdi. Artıq 30 il ötür o faciədən. Bu illər ərzində qəlbimizdə yaşatdığımız kinin, nifrətin, intiqamın ən layiqli cavabını 44 günlük Vətən müharibəsində mənfur düşmənə verməklə gördük və şahid olduq. Şanlı Qarabağ Zəfəri qəhrəman şəhid qardaşlarımızın qanları ilə 44 gündə yazdığı yenilməzlik dastanıdır. O mübarək savaşda illərin həsrətinə son verildi, şəhidlərimizin qisası alındı və erməni faşistləri biabırcasına Azərbaycan torpaqlarından qovuldu. Hər bir türk oğlu türkün borcudur ki, dünənini unutmasın, bu gününün qiymətini bilsin. Elə qazandığımız böyük Zəfər də, Xocalı soyqırımı da və bunların timsalındakı neçə-neçə tarixi həqiqət də dediklərimizə daxildir. Nə olursa olsun, dünyanın bədxah dövlətlərinin nə etdiklərindən və edəcəklərindən asılı olmayaraq, bu həqiqətləri biz unutmayacaq və unutdurmayacağıq. Xocalı qətliamını da, qardaşlarımıza qarşı işlənən bütün insanlıq günahlarını da hər zaman xatırlayacaq və xatırladacağıq.

Digər müsahibimiz ***İsgəndər Doğan*** muxtar respublikamızdakı turizm potensialından söhbət açaraq deyir ki, Naxçıvan Muxtar Respublikasının zəngin təbiəti, qədim tarixi və maddi mədəniyyət abidələri burada turizmin inkişafı üçün geniş imkanlar açır. Naxçıvanın coğrafi mövqeyini təhlil edib dəyərləndirdikdə şahid oluruq ki, təmiz iqlimi, maraqlı mühiti və böyük bir hissəsinin dağlıq və dağətəyi, o cümlədən yaylalıq ərazilərdən ibarət olması bizim kimi peşəkar və həvəskar dağçıların, alpinistlərin diqqətini çəkir. Hesab edirəm ki, bu istiqamətdə irimiqyaslı layihələrin hazırlanaraq həyata keçirilməsi yeni turizm meyillərinin meydana çıxmasına səbəb olur. Bununla yanaşı, turizmin tanıdılması sahəsində də məqsədyönlü işlərin həyata keçirilməsi



Naxçıvanın bu istiqamətdə uğurlar qazanmasında böyük rol oynaya bilər. Burada olduğumuz iki gün müddətində sosial şəbəkələr vasitəsilə öz şəxsi hesablarımızda Haçadağa etdiyimiz yürüşün fotoşəkillərini, videolarını paylaşdıq, rəsmi internet saytlarımız vasitəsilə izləyicilərimizlə bölüşdük. Naxçıvan bizim kimi digərlərinin də diqqətini çəkir. Sosial şəbəkələr üzərindən bizlərə çoxsaylı izləyici münasibətləri gəlir. Hər kəs iqlimin, təbiətin necə olması, Naxçıvanda ekoturizm ünvanları haqqında maraqlanır, zəngin məlumat verməyimizi istəyir. Bizlər də əlimizdən gəldiyi qədər qardaş diyarımızı təbliğ etməyə, burada bizim gördüklərimizi onların da görməsinə çalışırıq. Səfərimiz baş tutmamışdan öncə mən muxtar diyarın qış mövsümü barədə bir qədər ətraflı məlumat toplamışdım. Həqiqətən də, ilk dəfə səfər etməyimə baxmayaraq, Naxçıvanın məhz bu mövsümdə istər iqlimi, istər təbii mühiti, istərsə də qonaqpərvər və səmimi insanları bizə mənəvi zövq qazandırdı. Haçadağın ətrafında havanın sərt, soyuq olması bizim üçün heç bir maneçilik törətmir. Əksinə, belə bir təbiətdə qışın özünəməxsus gözəlliklərindən zövq alır, gəldiyimiz üçün özümüzü xoşbəxt hiss edirik. İnanıram ki, Naxçıvan Muxtar Respublikasının tez bir zamanda quru yollarının işə salınması ilə ərazi etibarilə Azərbaycana birləşməsi bu diyarın gözəlliyinə daha bir gözəllik qatacaq, necə deyərlər, dünyanın, o cümlədən Qafqaz ölkələrinin nəzərini öz üzərində cəmləşdirəcək. Son olaraq bir məqamı da məxsusi qeyd edim ki, bütün iştirakçılar adından bizi qonaqpərvərliklə qəbul etdiyinizə görə minnətdarlığımı bildirir və Xocalı soyqırımında şəhid olan soydaşlarımıza Allahdan rəhmət diləyirəm.

"Naxçıvan Muxtar Respublikasının hər bir sahəsində etimada sədaqətin, Vətənə məhəbbətin izləri duyulur", – deyir həmsöhbətimiz ***Məhmət Aydın.*** Təməli minilliklərə dayanan Türkiyə-Azərbaycan qardaşlığından söhbət açaraq bildirir ki, tarixi inkişafın bütün dövrlərində hər iki qardaş ölkə ən çətin, məşəqqətli məqamlarda bir-birinin yanında olub. Bu qardaşlıq, dostluq, müttəfiqlik münasibətlərinin uğurlarını da hər keçən gün daha yaxından hiss edirik. Bu məqamda qeyd etmək lazımdır ki, Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda hər iki ölkənin dövlət başçıları tərəfindən ən yüksək səviyyədə davam etdirilməkdədir. Ölkə rəhbərlərinin qarşılıqlı rəsmi səfərləri xalqlarımız tərəfindən böyük rəğbət və təntənə ilə qarşılanır və bu səfərlərin hər birində iki dost qardaş ölkə arasında bütün sahələr üzrə sıx əməkdaşlıq daha da möhkəmlənir. Bu uğurların hər biri dostlarımızı sevindirdiyi kimi, düşmənlərimizin canına da vahimə salır. Artıq qardaş Azərbaycan dövləti öz inkişaf dövrünün ən ümdə məqamında, uğurlu gələcəyinin fövqündə dayanıb. Ötən əsrin çətinlikləri də qazandığı müvəffəqiyyətlər hesabına geridə qalıb. Ötən dövr hər iki qardaş ölkəyə, ən başda da xalqımıza çox şeylər öyrətdi. Ən azından daha yaxından anladıq və dərk etdik ki, türkün türkdən başqa dostu yoxdur. Türkiyə həmişə olduğu kimi qardaşlarını Azərbaycanın haqlı davasında da yalnız qoymayaraq bütün dünyaya Qarabağın Azərbaycanın əzəli torpaqları olduğunu, bu haqq davasında heç bir ölkənin Azərbaycana mane ola bilməyəcəyini bəyan etdi. Nə qədər ki, bu sarsılmaz qardaşlıq var, biz bir xalq, bir millət və iki dövlət olaraq daim irəliləyəcəyik.

Qardaş ölkənin Qars şəhərindən olan ***Onur Bənli*** deyir:

– Naxçıvanda olduğumuz bu müddət ərzində qədim türk diyarının hər bir sahəsində olan təbiilik məndə xoş duyğular yaratdı. İnsanlarınız gülərüz və qonaqpərvərdir. Səfər çərçivəsində öyrəndik ki, bu diyarda möhtəşəm ziyarətgahlar, muzeylər, bölgənin tarixini özündə əks etdirən, nəsillərə çatdıran tarixi abidələr var. Hər biri də bir-birindən gözəl və maraqlıdır. Onların qorunub saxlanılması böyük vətənpərvərliyin, tarixə bağlılığın nişanəsidir. Burada ən çox diqqətimi çəkən səfərimizin son günü ekskursiya etdiyimiz Əshabi-Kəhf tarixi abidəsi oldu. Oranın tarixiliyi sirli aləm kimi insanı heyran edir. Bizə məlumat verildi ki, çox yüksəklikdə yerləşən bu tarixi abidə əsrlərin yadigarı kimi bərpa olunub. Hər tərəfdə təmizlik, abadlıq hökm sürür. Abad binalar, geniş yollar, bu diyarın hər qarışı bizə sonsuz zövq bəxş etdi. Bu səfər mənim xatirəmdə əbədi qalacaq. Çünki ilk xarici ölkəyə səfərimi məhz qardaş ölkəmiz Azərbaycana etmişəm. İnanıram ki, bundan sonra da Naxçıvana səyahət etmək imkanı qazanacağam. Səfərimizin əsas məqsədinə, bizi buraya gətirən məramə söykənərək bir daha bütün şəhidlərimizə rəhmət diləyirəm.

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Boks Federasiyasının fəaliyyəti və qarşıda duran vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı tədbirdə çıxış edərək bildirib ki, nazirlik tərəfindən idmanın inkişafı və təbliği məqsədilə ardıcıl işlər görülür, maddi-texniki imkanlar genişləndirilir, müasir idman mühiti yaradılır, idmançıların dünya arenasına çıxışı təmin olunur. Nəticədə, əhalinin, xüsusən də gənc nəslin bu sahəyə olan marağı zaman keçdikcə daha da artır, böyük nailiyyətlər əldə olunur. Belə ki, ötən il Naxçıvan idmançıları tərəfindən ölkə və dünya arenalarında 27-si qızıl olmaqla, ümumilikdə, 82 medal qazanılıb. Bütün bunlar Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublikamızda uğurla icra olunan dövlət idman siyasətinin bəhrələridir.

Boks Federasiyasının fəaliyyəti barədə danışan nazir qeyd edib ki, Şahbuz rayonu istisna olmaqla, Naxçıvan şəhəri və bölgələrdə fəaliyyət göstərən boks üzrə bölmələrdə, ümumilikdə, 21 qrup üzrə 330 yeniyetmə və gənc idmanın bu növü ilə məşğul olur. Ötən il federasiyanın yetirmələrindən Sərxan Əliyev kişilər arasında, Tayfur Əliyev isə hərbçilər arasında dünya çempionatlarını, Eldar Quliyev isə neft ölkələri arasında dünya birinciliyini bürünc medalla başa vurublar. İdmançıların bu tarixi uğurları Naxçıvanın boks tarixində qazanılmış ən yüksək nailiyyətdir.

Qeyd olunub ki, qazanılan nailiyyətlərə baxmayaraq, qarşıda mühüm vəzifələr dayanır. İdman federasiyaları və aidiyyəti qurumlarla birgə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlərin davam etdirilməli olduğunu vurğulayan Ramil Hacı dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqları diqqətə çatdırıb. Nazir federasiya ilə qarşılıqlı əməkdaşlıq və fəaliyyət nəticəsində yeni nailiyyətlərin əldə olunacağına inamını ifadə edib.

Federasiyanın sədr müavini Məmmədcəfər Əliyev ötən il ərzində keçirilən tədbirlər haqqında hesabat xarakterli məlumatı diqqətə çatdırıb. Rayonlarda çalışan məşqçi-müəllimlərdən Seymur Hüseynov və Rasim İsgəndərov öz fəaliyyətləri barədə danışıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Maarifləndirici görüş keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrin aktiv əməyə cəlb edilməsi, məşğulluğunun təmin olunması daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan şəhərindəki Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Baytarlıq Xidməti və Dövlət Baş Sığorta Agentliyinin əməkdaşlarının, həmçinin Sahibkarlığın İnkişafı Fondunun nümayəndələrinin iştirakı ilə müvafiq proqrama cəlb edilən yerli sakinlərlə növbəti görüş keçirilib.

Tədbirdə sakinlərə verilmiş aktivlərdən təyinatına uyğun istifadə edilməsi, iri və xırdabuynuzlu heyvanların saxlanılması, yetişdirilməsi və istifadə olunmasının təşkili, sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb ola biləcək hadisələrin baş verməsi ehtimalı və buna qarşı sığortaçının üzərinə götürdüyü öhdəliklər və digər zəruri işlərlə bağlı məlumatlar verilib.

Sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, verilən aktivlərdən daha səmərəli istifadə etməyə çalışacaqlarını deyiblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Qafarov Sahib Etibar oğlunun adına olan 0201002352 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 174